# HƏYAT ÖZÜ BİR NAĞILDIR

*(elegiya)*



Biri var idi, biri yox idi. Bir... Yox, Elcan bu gün də var. Hər yağışın damlasında, hər günəşin çıxmasında, buludun çökməsində var, hər yerdə var. Gedə bilməz ki. Elcan Məlikovar ailəsində dünyaya göz açdı. İlk övlad. İlk sevgi ömürlük xəyal yuxu xatirə məhəbbət oldu. O qədər ətirliydi ki, doğulandan torpaq qoxudu. Yağışdan sonra qalxan torpaq qoxulu idi. Doya bilmədik ətrinə. Tələsdi Elcan böyüməyə və getməyə. Gülüşüylə gəldi, bir gülüş içində qəfil qanadlandı. Və ən böyük nağıl qoydu bizə, bitməyən, sonunda üç alması olmayan nağıl... öz dilindən bizə nağıl qoydu...

***Elcanın nağılı...***

Həyat mənə çox qorxulu görünürdü dünyaya gəlmədən. Yəni, mən ana bətnində olanda. Ora okeana bənzəyir. Bir tutunacaqın tanrının bəxş etdiyi səni anaya bağlayan möcüzəli bir sistemdir. Həə... mənim çox qorxularımı anam dəf etdi. Tanrı mən doğulmadan məhəbbətimi vermişdi anama. Hələ doğulmadan məni qoruyur, yedirir, qayğımı çəkirdi. O böyük gün gəldi, nəhayət. Mən doğuldum. Heç kimi tanımadan. Bir isti nəfəsi tanıdım. Anam idi. Ətrini tanıdım. Cənnət ətiri. Hamı məni sevirdi. İlahi, dünya nə gözəl idi. Atamı da tanımağa başladım. Baxışında nə böyük məhəbbət vardı.

Mələk üzlü anam. Mənə baxanda gözlərində necə sevgi, səadət doğulurdu. Mən onun ilk meyvəsi, o mənim ilk və ...məhəbbətidir. Aylar, illər ötüşürdü. Mən beş yaşına gəldim. Nə qəribədir, heç illərin necə keçdiyini bilmədim. Müsəlman oldum, məktəbə getdim və bu gün həyatda qalmağa çalışıram. Yenə əllərimdən anam yapışıb. Amma gözlərində böyük kədər, acı görürəm. Anam öz anasına deyəndə eşitdim, "ana, sənin balan ölsün, amma mənim balam yaşasın!"

Ana, mən sənsiz yaşaya bilmərəm. Tut əllərimdən, ikimiz də yaşayaq. Bərabər gözlərində duanı oxudum, ana. AMİN DEYİRƏM. Sizin Elcan. (anamın dualarına amin deyin)

Günləri ay etmək üzrəyəm. Elə tez ötür ki, zaman. Necə vaxtdı Bakıdayam. Müalicədəyəm. O həkim əmi vardı, atama "oğluna gömək edəcəm" deyən, hə bax onun yanında. Deyir ki, yaxşı olacaq. Allahın köməyi, sizlərin duası ilə. İnşallah. Amma mən çox darıxıram. Nənəm, babam üçün, evimiz ücün. Babam mənə qoç qurbanı deyib. Deyir ki, sağal, kəsəcəm sənə. Baba, sənin boynuna sarılmaq, üzündən öpmək istəyirəm. Hələ nənəm... həkim mənə "bir az xəstədi" deyəndə nələr etmədi. Özün döydü, ağladı, hətta yerə də yıxıldı. Canım nənəm, Elcanın darıxır sənsiz. Nənəm mənə "Elcanım" deyir. Amma nənəm bilmir ki, həkim əmilər mənı incidir. Bilsə yenə ağlayar. Yanıma gələndə iynələrimin yerindən öpür. Nənə, gülüşün üçün darıxmışam. Hələ sənə şeir əzbərləmişəm. Nənəmi çağıranda söyləyir mənə "ay can!" Sizin üçün darıxır indi balaca Elcan. Məni darıxmağa qoyma, nənə. Nənəmin, babamın ürəyi məndədir, həkim əmi, ürəyimə toxunma. Nənələr, siz nəvələrinizə dua edəndə, mənə də edin, nolar. Nənəm, babam ürəksiz yaşamazlar axı. Kimsədən incimədim, bir həkimlərdən savayı.

Sizin ELCAN.